# Azərbaycan Prezidenti İlham Əliyev Qəbələyə səfəri zamanı Qəbələ Rayon Uşaq Yaradıcılıq Mərkəzində məşğul olanların işləri ilə tanış olub

**(18 avqust 2005-ci il)**



Azərbaycan Prezidenti İlham Əliyev avqustun 18-də səhər Qəbələ rayonuna gəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Heydər bağında sakinlərlə görüşəndən sonra Qəbələ rayon Mədəniyyət Evinə gəlmişdir. Dövlətimizin başçısı Mədəniyyət Evinin ansamblının çıxışını dinlədi, burada təşkil edilmiş sərgi ilə tanış oldu.

Rayon mədəniyyət şöbəsinin müdiri Nargilə Qafarova Prezident İlham Əliyevə son aylar ərzində görülən işlər və sərgi barədə məlumat verdi. Bildirdi ki, burada, Texniki Yaradıcılıq Mərkəzində hazırlanmış əl işləri nümayiş olunur. Texniki Yaradıcılıq Mərkəzində hazırlanmış əl işləri ötən il Bakıda keçirilən müsabiqədə birinci yeri tutmuşdur. Azərbaycan Prezidenti Uşaq Yaradıcılıq Mərkəzində məşğul olanların əl işləri, qədim xalq sənəti nümunələri ilə tanış oldu.

# Azərbaycan Prezidenti İlham Əliyev Oğuza səfəri zamanı Heydər Əliyev Fondu tərəfindən tikilən məktəbdə olub

**(18 avqust 2005-ci il)**



Azərbaycan Prezidenti İlham Əliyev avqustun 18-də Oğuz şəhərinin “Gənclik” qəsəbəsində inşasına bu yaxınlarda başlanmış 244 şagird üçün nəzərdə tutulmuş məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilən məktəb yeni dərs ilində şagirdləri qəbul edəcəkdir. Binanı “Dayaq” kiçik müəssisəsi tikir, yerli inşaatçılara kömək üçün Bakıdan da mütəxəssislər gəlmişdir.

Prezident İlham Əliyev məktəbin layihəsi ilə tanış oldu, tikinti işləri ilə yaxından maraqlandı, sinif otaqlarının genişləndirilməsi, işlərin keyfiyyətlə görülməsi barədə müvafiq tapşırıqlar verdi.

# Aspirantlar, ali, orta ixtisas və peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, dövlət ali, orta ixtisas, peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

**1.** "Aspirantlara, dövlət ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 aprel tarixli 187 nömrəli sərəncamına əsasən dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, dövlət ali, orta ixtisas, peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən aylıq təqaüdlərin miqdarı 2,5 dəfə artırılsın.

**2.** Təqaüdlərin ödənilməsi dövlət büdcəsində həmin məbləğlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4**. Bu sərəncam 1 sentyabr 2005-ci il tarixindən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 avqust 2005-ci il**

# Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

“Dövlət gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli fərmanı dövlət gənclər siyasətinin həyata keçirilməsinə, uşaq və gənclərlə işləyən kadrların hazırlanmasına, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsinə, ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsində əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsinə, uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemlərin həlli istiqamətində əməli tədbirlərin görülməsinə şərait yaratmışdır.

Həmin fərmanda müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etmək məqsədi ilə 1999-2004-cü illər ərzində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmiş, o cümlədən normativ hüquqi aktlar qəbul edilmiş, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi və Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılmışdır.

Uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata keçirilən gənclər siyasətini tənzimləmək məqsədi ilə 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmış, gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. Eyni zamanda bu sahədə hələ də öz həllini gözləyən bir sıra məsələlər mövcuddur. Yeniyetmə və gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin daha da gücləndirilməsi, gənclərin məşğulluğunun təmin edilməsi, onların sahibkarlıq fəaliyyətinə kömək göstərilməsi, sosial problemlərinin həlli, yaradıcı və istedadlı gənclərə, gənc ailələrə dövlət qayğısının artırılması, o cümlədən onların mənzil şəraitinin yaxşılaşdırılması, gənclərin dövlət quruculuğu işlərinə geniş cəlb olunması və bu kimi məsələlər dövlət gənclər siyasəti çərçivəsində bir sıra tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gəncləri dövlət idarəçiliyində aparıcı yerlərdən birini tutan qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Nazirlər Kabineti:

2.1.bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Dövlət Proqramında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin illər üzrə maliyyələşdirilməsini iki ay müddətində müəyyənləşdirib təsdiq etsin;

2.2.bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 avqust 2005-ci il.**

# Azərbaycan Prezidenti İlham Əliyev Lerik rayonuna səfəri zamanı Lerik qəsəbə orta internat məktəbində olub

**(8 sentyabr 2005-ci il)**




Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 8-də Lerik rayonuna səfəri zamanı Valeh İbrahimov adına Lerik qəsəbə orta internat məktəbində olmuşdur.

Dövlətimizin başçısı və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 1960-cı ildə tikilmiş və əsaslı təmirə ehtiyacı olan məktəb binasının vəziyyəti ilə yaxından tanış oldular, eyni zamanda fənn kabinetlərinə baxdılar, tədris üçün şəraitlə, dərsliklərlə təminatın vəziyyəti ilə maraqlandılar.

Məktəbin direktoru, elmlər namizədi Musa Bədəlov bildirdi ki, burada 180 şagird təhsil alır. Bina çox köhnəldiyindən təmirə böyük ehtiyacı vardır.

Prezident İlham Əliyev binanın əsaslı təmiri üçün yaxın vaxtlarda hər cür kömək göstəriləcəyini bildirdi.

Sonra dövlətimizin başçısı məktəbin xatirə kitabına ürək sözlərini yazdı:



*“Azərbaycan dili və ədəbiyyat kabineti uşaqların ana dilinin mükəmməl öyrənilməsi işində böyük rol oynayır. Bizim ədəbiyyatımız, dilimiz müstəqil Azərbaycan Respublikasının inkişafında çox böyük əhəmiyyət kəsb edir. Arzu edirəm ki, uşaqlar ədəbiyyatımızı yaxşı oxusunlar. İnternat məktəbinin təmirə böyük ehtiyacı vardır. İnternat məktəbinin kollektivinə və burada oxuyan bütün uşaqlara uğurlar arzulayıram”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**8 sentyabr 2005-ci il.**

Məktəbin direktoru Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya öz kitabını hədiyyə etdi.

# Azərbaycan Prezidenti İlham Əliyev Yardımlıya səfəri zamanı akademik Zərifə Əliyeva adına körpələr evi-uşaq bağçasının açılışında iştirak edib

(9 sentyabr 2005-ci il)



Sentyabrın 9-da Yardımlı qəsəbəsində akademik Zərifə Əliyeva adına körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi münasibəti ilə mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısını, xanım Mehriban Əliyevanı və qızı Leylanı uşaqlar, valideynləri binanın qapısında böyük sevinclə qarşıladılar, onlara gül dəstələri təqdim etdilər.

Balacalar Heydər babaya, Prezidentə həsr olunmuş şeirlər söylədilər.

Prezident İlham Əliyev körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Sonra binanın vestibülündə akademik Zərifə Əliyevanın büstü önünə gül dəstəsi qoydu.



Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə təxminən iki aya tikilmiş bina ən müasir standartlara cavab verir. Ümumi sahəsi 720 kvadrat metr olan binada uşaqlar üçün oyun zalı, yataq, yemək, dərs, həkim müayinəsi otaqları vardır. Həyətdə karusellər qoyulmuş, oyun meydançası, gəzinti yerləri düzəldilmişdir. 800 kvadrat metrə yaxın ərazidə yaşıllıq salınmış, müxtəlif bəzək kolları və güllər əkilmişdir. Binanın öz qızdırıcı sistemi də vardır.

Dövlətimizin başçısı Heydər Əliyev guşəsinə, görkəmli alim Zərifə xanımın fotoşəkillərinə baxdı, ayrı-ayrı otaqları gəzdi, yaradılan yüksək şəraitdən razılığını bildirərək, bunu xalqımızın gələcəyi olan uşaqlara qayğının təzahürü kimi qiymətləndirdi.

Azərbaycan Prezidenti və ailə üzvləri uşaqlarla xatirə şəkli çəkdirdilər.

# 2005-2006-cı tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** 2005-2006-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbasov Elmar Hakim oğlu
Abbasov Faiq Qalib oğlu
Abduləzizov Hikmət Mürvət oğlu
Abdullayev Namiq Süleyman oğlu
Abdullayeva Ülviyyə Dəyanət qızı
Ağahüseynova Həmidə Əlisahib qızı
Ağayeva Əsmər Ağaəskər qızı
Axundov Fazil Elçin oğlu
Alıyev Səbuhi Mehdi oğlu
Allahverdiyev Zaur Valeh oğlu
Babayev Elnur Elxan oğlu
Babək Kamil Məmmədağa oğlu
Bağırov Tural Kamal oğlu
Cabbarlı Elvin Fəxrəddin oğlu
Camalzadə Murad Fərrux oğlu
Cəbrayılov İsmayıl Süleyman oğlu
Əfəndiyev Orxan Oqtay oğlu
Əhmədov Elman Vahid oğlu
Ələkbərov Anar Akif oğlu
Ələsgərova Könül Ağası qızı

Əliyev Mehdi Ədalət oğlu
Əliyev Vüsal Aqil oğlu
Əliyeva Fatimə Azad qızı
Əliyeva Gülşən Əliəsgər qızı
Əliyeva Nümunə İlham qızı
Əlizadə Məryəm Fuad qızı
Əzimova Gültəkin Səmədxan qızı
Fərəyeva Nigar İlqar qızı
Hacıyev Real Elxan oğlu
Hacıyeva Nigar Bünyad qızı
Heydərova Ülkər Dəniyar qızı
Həbibov Nemət Şahin oğlu
Həbibullayev Rəhim Elxan oğlu
Həsənli Ülviyyə Vidadi qızı
Həsənova Gülnar Rafiq qızı
Hüseynov Fərid Şahin oğlu
Hüseynov Orxan Vaqif oğlu
Xanlarov Şaiq Eynulla oğlu
Xıdırov Fariz Nazim oğlu
İbayeva Aysel Əvəz qızı
İsmayılov Orxan Şahmurad oğlu
İsmayılov Rəşad Arif oğlu
İsmayılova Sevinc İzzət qızı
Kazımov Ağamir Əlizadə oğlu
Kazımov Elzamin Kamandar oğlu
Kərimov Tural Vaqif oğlu
Qaragözova Nigar Vaqif qızı
Qarayev Əsgər Elşad oğlu
Qasımov Turab Ədalət oğlu
Qasımova Xədicə Nazim qızı
Qattal Fərid Abid oğlu
Qədimova Nəzrin Etibar qızı
Qəhrəmanov Tural Cəlal oğlu
Qəribov Azad İslam oğlu
Qocayev Turan Kəmaləddin oğlu
Quliyev Fərid Etibar oğlu
Quliyev Nicat Səməd oğlu
Quliyeva Şahnaz Füzuli qızı
Manyuxina Yana Borisovna
Mehralıyeva Zümrüd Elbrus qızı
Məmmədov Elmin Fikrət oğlu
Məmmədov Nurlan Polad oğlu
Məmmədov Tural Qurban oğlu
Məmmədov Vasif Yusif oğlu
Məmmədova Aygün Hafiz qızı
Məmmədova Əfruz Etibar qızı
Məmmədova Leyla Cavanşir qızı
Məmmədova Vüsalə İbrahim qızı
Məmmədzadə Pərviz Vaqif oğlu
Mursakulova Turan Zakir qızı
Murtuzayeva Arzu Xasay qızı
Musayev Emin Zərgər oğlu
Musayev Samir Məhərrəm oğlu
Mustafayev İlqar Valeh oğlu
Mürşüdov Elnur İlqar oğlu
Namazova Pərvin Murad qızı
Nəbiyev Elxan Aydın oğlu
Nəbiyev Şirvan Polad oğlu
Novruzəliyev Bəhram Fəxrəddin oğlu
Ocaqverdiyeva Səidə İmdat qızı

Orucov Samir Zakir oğlu
Osmanova Xədicə Eldaq qızı
Ramazanov Ruslan Yunis oğlu
Rəsulov Şəfi Asif oğlu
Rüstəmova Gülnaz Rüstəm qızı
Rzayev Xətai İldırım oğlu
Rzayev Turab Rəşid oğlu
Rzayev Türkay Rəfail oğlu
Sadıqov Azər Sübhi oğlu
Səfərov Nemət Səid oğlu
Səmədov Hidayət Rasim oğlu
Sərdarlı Sevinc Hidayət qızı
Tağıyev Fərid Yaşar oğlu
Vəliyeva Zəhra İsmayıl qızı
Yarızadə Babək Əliheydər oğlu
Yolçuyeva Günel Yaşar qızı
Yusifova Ləman Akif qızı
Zeynalova Amalya Rasim qızı
Zeynalova İnarə Fikrət qızı
Zmitroviç İqor Oleqoviç

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 12 sentyabr 2005-ci il.**

# Bakının Xətai rayonundakı Heydər Əliyev adına liseydə “Bilik Günü”nə həsr olunmuş mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

**(15 sentyabr 2005-ci il)**



- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli müəllimlər!

Əziz uşaqlar!

Sizin hamınızı yeni dərs ilinin başlanması, “Bilik Günü” münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gün burada Heydər Əliyevin adını daşıyan bu gözəl lisey öz qapılarını yenidən açır. Sizi bu münasibətlə də təbrik edirəm.

Burada deyildiyi kimi, bu lisey ən yüksək standartlara uyğun səviyyədə tikilib və bu gün uşaqların sərəncamına verilir. Mən şübhə etmirəm ki, burada uşaqlar yaxşı oxuyacaq və bu şəraitdən çox səmərəli istifadə edəcəklər. Həm tikinti çox keyfiyyətli aparılmışdır, eyni zamanda buradakı müasir avadanlıq, idman meydançaları, digər infrastruktur imkan verəcək ki, burada oxuyan bütün uşaqlar yaxşı təhsil alsınlar, sağlam olsunlar.



İndiki zamanda yaxşı təhsil almaq çox önəmlidir. Bu o deməkdir ki, gələcəkdə uşaqlar, gənclər həyatda özlərinə layiq yer tutacaqlar. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur. Ümumiyyətlə, dünyada gedən tərəqqinin əsas əlaməti və səbəbi bilikdir, savaddır. Ona görə Azərbaycanda yeni gənc nəslin yetişdirilməsi və tərbiyə olunmasında təhsilin, məktəbin çox böyük əhəmiyyəti var. Uşaq demək olar ki, günün yarısını məktəbdə keçirir və burada olan şəraitdən, hökm sürən ab-havadan, təhsilin keyfiyyətindən çox şey asılıdır.

Azərbaycanda son illər ərzində məktəb tikintisi çox sürətlə gedir. Bu yaxınlarda 100-dən çox məktəbin tikintisinə başlanmışdır və artıq başa çatdırılır. Azərbaycanda 4500-dən artıq məktəb var, onların əksəriyyətinin təmirə böyük ehtiyacı vardır. Yenə də demək istəyirəm ki, hər şey iqtisadi inkişafa bağlıdır. Azərbaycanın 1990-cı illərin əvvəllərində

üzləşdiyi o çətin şərait imkan vermirdi ki, humanitar sahəyə, təhsil sahəsinə daha böyük həcmdə vəsait ayrılsın, mövcud olan bütün problemlər öz həllini tapsın. Yalnız iqtisadi inkişaf meyilləri güclənəndən sonra, bizim büdcəmiz artandan sonra bu sahəyə daha çox vəsaitin ayrılması mümkün oldu. Gələcək illərdə təhsilə, bütövlükdə, humanitar sahəyə çox böyük diqqət göstəriləcək və böyük həcmdə büdcə vəsaitinin ayrılması nəticəsində böyük işlər görüləcəkdir.

Biz ölkəmizi hərtərəfli inkişaf etdirmək istəyirik, bütün sahələri inkişaf etdirmək istəyirik. Ancaq bunu etmək üçün güclü iqtisadi baza lazımdır. Bilirsiniz ki, yeni məktəblərin tikintisi prosesi sürətlə gedir, gələn il də davam etdiriləcək, büdcədə də kifayət qədər vəsait nəzərdə tutulacaqdır. Eyni zamanda məktəblərin kompüterləşməsi proqramı da uğurla icra edilir. Qarşıya belə bir vəzifə qoyulubdur ki, bütün məktəblərdə kompüter sinifləri yaradılsın və uşaqlar bilavasitə İnternetə çıxış əldə etsinlər, dünyada gedən proseslərlə tanış olsunlar. Azərbaycan dünya birliyinə inteqrasiya siyasətini aparır və dünyada gedən bütün hadisələr, yeniliklər, yaranan yeni texnologiyalar - bunların hamısı İnternet, kompüter vasitəsilə bizim uşaqlarımızın ixtiyarında olmalıdır.

Bütövlükdə, təhsil sahəsində mövcud olan problemlər də öz həllini tapacaqdır. Mən buna şübhə etmirəm. İlk növbədə, təhsilin maddi-texniki bazasının möhkəmlənməsi işində artıq müsbət nəticələr görünməkdədir. Bunu etmək vacibdir və biz bunu edəcəyik. Eyni zamanda bunu etmək üçün gərək iqtisadi potensial olsun. O da var və artır. Ancaq, eyni zamanda tədris prosesinin səviyyəsinin yüksəldilməsi məsələləri də çox önəmlidir. Bu sahəyə də çox böyük diqqət göstərilməli və təhsilin keyfiyyəti daha da artmalıdır. Orta məktəblərdə

***Bu lisey ən yüksək standartlara uyğun səviyyədə tikilib və bu gün uşaqların sərəncamına verilir. Mən şübhə etmirəm ki, burada uşaqlar yaxşı oxuyacaq və bu şəraitdən çox səmərəli istifadə edəcəklər. Həm tikinti çox keyfiyyətli aparılmışdır, eyni zamanda buradakı müasir avadanlıq, idman meydançaları, digər infrastruktur imkan verəcək ki, burada oxuyan bütün uşaqlar yaxşı təhsil alsınlar, sağlam olsunlar.***

*İndiki zamanda yaxşı təhsil almaq çox önəmlidir. Bu o deməkdir ki, gələcəkdə uşaqlar, gənclər həyatda özlərinə layiq yer tutacaqlar. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur. Ümumiyyətlə, dünyada gedən tərəqqinin əsas əlaməti və səbəbi bilikdir, savaddır. Ona görə Azərbaycanda yeni gənc nəslin yetişdirilməsi və tərbiyə olunmasında təhsilin, məktəbin çox böyük əhəmiyyəti var.*

oxuyan, ali məktəblərdə oxuyan gənclər yüksək savad almalı, yüksək biliyə malik olmalıdır ki, doğma Vətənimizə, ölkəmizə səmərəli xidmət göstərsinlər və Azərbaycanın potensialını gücləndirsinlər.

Bu gözəl lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Heydər Əliyevin Azərbaycan tarixində rolu və fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Burada deyildi ki, "Qaraşəhər" adlandırılan bu ərazidə 1970-ci illərdə demək olar, ekoloji fəlakət hökm sürürdü. Sənaye potensialının güclənməsi ilə yanaşı, bu ərazinin abadlaşdırılması da, hesab edirəm, çox böyük nailiyyətdir. İndi buranı tanımaq mümkün deyildir. Bütün sahələrdə - istər ölkəmizin sosial-iqtisadi inkişafı işində, beynəlxalq aləmə inteqrasiya işində, Azərbaycanda güclü iqtisadi potensialın yaranması, neft strategiyasının uğurla icra olunması, Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, ictimai-siyasi sabitliyin qorunması və möhkəmlənməsi işində Heydər Əliyevin rolu çox böyük əhəmiyyət kəsb edir. Bu, özünü 1970-ci illərdə sovet Azərbaycanının inkişafında və 1990-cı illərdə göstərirdi.

Onu da demək istəyirəm ki, 1970-ci illərdə bütün başqa işlərlə yanaşı, təhsil sahəsinə də çox böyük önəm verilirdi və bildiyiniz kimi, o vaxt hər il minə qədər azərbaycanlı gənc güzəştli şərtlərlə, imtahanları Bakıda verərək, Sovet İttifaqının müxtəlif məşhur ali məktəblərinə qəbul olunurdu. Bu gün o insanlar müstəqil Azərbaycanın inkişafı üçün çox böyük işlər görürlər. Faktiki olaraq, hər il min nəfər müxtəlif təhsil ocaqlarında təhsil alırdı.

Eyni zamanda o illərdə Azərbaycanda Sovet İttifaqında analoqu olmayan hərbi təmayüllü məktəb yaranmışdı. O,

Heydər Əliyevin təşəbbüsü ilə açılan Naxçıvanski adına məktəb idi və bu gün müstəqil Azərbaycanın ordusunun formalaşmasında o məktəbin məzunları çox önəmli rol oynayırlar. Yəni, bütün sahələrdə quruculuq işləri aparılırdı, bütün işlər bir məqsədə xidmət edirdi ki, Azərbaycan daha da inkişaf etsin, ölkəmiz daha da güclənsin. Artıq bu, öz nəticələrini verir. Bu gün Azərbaycan bölgədə ən sürətlə inkişaf edən ölkədir. Azərbaycanda gedən sosial-iqtisadi, siyasi islahatlar ölkəmizi daha da inkişaf etdirir və əlbəttə, gələcəyə inamla baxmaq üçün gözəl şərait yaradır.

Heydər Əliyevin "Azərneftyağ" Zavodunun həyatında da çox önəmli rolu olmuşdur. 1970-ci illərdə zavodda aparılan yenidənqurma, abadlıq işləri, yeni qurğuların yaranması zavodun əhəmiyyətini çox yüksək səviyyəyə qaldırmışdı. Eyni zamanda 1990-cı illərin ortalarından başlayaraq bu günə qədər zavodda gedən işlər həmin müəssisənin potensialını gücləndirir, həm də Azərbaycan iqtisadiyyatına çox böyük töhfələr verir. Yeni qurğular tikilir, yeni texnoloji proseslər tətbiq edilir. Bir sözlə, "Azərneftyağ" Zavodu bu gün Azərbaycanın neft sənayesində və ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatında çox önəmli yerə malikdir.

Eyni zamanda zavod tərəfindən evlərin, məktəblərin tikilməsi də çox təqdirəlayiqdir. Çünki bu sahəyə daim diqqət göstərilməlidir. Bu ərazidə zavodda işləyənlər üçün evlər tikilibdir, bu cür gözəl lisey tikilibdir və belə də olmalıdır. Biz xalq üçün işləyirik, xalq üçün yaşayırıq. Əlbəttə, iqtisadi potensialın möhkəmlənməsi əsas şərtdir. Amma, eyni zamanda sosial məsələlərə diqqət və insanlara diqqət, qayğı mütləq olmalıdır. Bizim insanlarımız yaxşı şəraitdə yaşamalıdır, onların yaxşı iş şəraiti olmalıdır. Uşaqlar gözəl məktəblərdə

***Uşaq demək olar ki, gününün yarısını məktəbdə keçirir və burada olan şəraitdən, hökm sürən ab-havadan, təhsilin keyfiyyətindən çox şey asılıdır.***

***Azərbaycanda son illər ərzində məktəb tikintisi çox sürətlə gedir. Bu yaxınlarda 100-dən çox məktəbin tikintisinə başlanmışdır və artıq başa çatdırılır.***

***Yeni məktəblərin tikintisi prosesi sürətlə gedir, gələn il də davam etdiriləcək, büdcədə də kifayət qədər vəsait nəzərdə tutulacaqdır. Eyni zamanda məktəblərin kompüterləşməsi proqramı da uğurla icra edilir.***

oxumalıdırlar. Bir sözlə, Azərbaycan yeniləşməlidir, Azərbaycanda infrastruktur yeniləşməlidir. Əlbəttə, bunu etmək üçün böyük vəsait lazımdır və bunu da əldə edirik. Şübhəsiz ki, istək, iradə və düzgün yanaşma da lazımdır. Bunların hamısı olan təqdirdə, işlər də yaxşı gedir.

Əziz dostlar!

Əziz uşaqlar, müəllimlər!

Bu gözəl liseydə dərs ilinin başlaması münasibətilə sizin hamınızı bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

# Azərbaycan Prezidenti İlham Əliyevə Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adı verilməsi mərasimi

**(23 sentyabr 2005-ci il)**



Sentyabrın 23-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adı verilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı universitetin binası önündə rektor Borislav Borisov ehtiramla qarşıladı. Prezidentə və xanımına gül dəstələri təqdim edildi.

Mərasimdən əvvəl Prezident İlham Əliyev ilə universitetin rektoru Borislav Borisov arasında söhbət oldu. Rektor dövlətimizin başçısına məlumat verərək dedi ki, 1920-ci ildən fəaliyyət göstərən və Bolqarıstanın ən nüfuzlu ali təhsil ocaqlarından olan bu universitetdə 25 min tələbə təhsil alır və 8 min nəfərlik professor-müəllim heyəti çalışır. Bir sıra ölkələrin prezidentləri universitetin fəxri professoru adına layiq görülmüşlər.

Borislav Borisov bildirdi ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsi

sahəsində xidmətlərinə görə Elmi Şuranın qərarı ilə Azərbaycan Prezidenti universitetin fəxri professoru adına layiq görülmüşdür.

Rektor Prezident İlham Əliyevə professor mantiyasını təqdim etdi.

Sonra universitetin Elmi Şurası üzvlərinin, professor-müəllim heyətinin iştirakı ilə mərasim keçirildi. Mərasimi rektor Borislav Borisov açdı:

— Hörmətli cənab Azərbaycan Respublikasının Prezidenti!

Sizi elmi ictimaiyyət adından salamlamaqdan və Sizə "Təkcə Bolqarıstanda deyil, həm də bütün Cənub-Şərqi Avropada ən böyük iqtisadi təhsil müəssisəsinə xoş gəlmişsiniz!" deməkdən son dərəcə böyük şərəf və məmnunluq duyuram.

Bolqarıstan bir neçə baş naziri, nazirləri, deputatlar, ictimai və dövlət xadimləri bu təhsil ocağının yetirmələridir. Artıq 85 ildir ki, minlərlə müəllim və tələbə universitetimiz üçün yaxşı imic yaradırlar, varislik, həqiqət axtarışı bu imicin tərkib hissələridir.

Siz, ölkəniz müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasının ikinci Prezidentisiniz ki, Bolqarıstana səfər edirsiniz. Atanız 1995-ci ildə Bolqarıstanda olarkən parlamentdə çıxışında vurğulamışdı ki, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün çox böyük potensial var. Əminəm ki, Bolqarıstan və Azərbaycan universitetləri arasında əməkdaşlıq inkişaf edəcək və universitetimizə Sizin gəlişiniz bu istiqamətdə yaxşı başlanğıc olacaqdır.

Rektor fəxri professor diplomunu və medalını dövlətimizin başçısına təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

# Azərbaycan Prezidenti İlham Əliyevin nitqi



— Hörmətli cənab rektor!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlamaq və belə yüksək ada görə təşəkkür etmək istəyirəm. Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adına layiq görülmək böyük şərəf və böyük məsuliyyətdir. Bilirəm ki, universitet bu regionun - Balkan yarımadasının və Avropanın aparıcı ali təhsil müəssisəsidir. Onilliklər ərzində universitet kadrlar hazırlanması, iqtisadi islahatlar üçün şərait yaradılması, habelə Bolqarıstan cəmiyyəti elitasının hazırlanması işinə böyük töhfə vermişdir. Ona görə də bu mənim üçün çox xoş hadisədir. Həyatımın bir hissəsi ali təhsil müəssisəsində işlə bağlı olmuşdur. Mən bir neçə il ərzində ali təhsil müəssisəsində dərs demişəm və ona görə də bu, mənə çox yaxın və əziz işdir. Sizə söz verirəm ki, bu adı şərəflə daşıyacaq və bu yüksək etimadı doğrultmağa çalışacağam.

Mən bu gün səhərdən sizin gözəl ölkənizdə rəsmi səfərdəyəm. Səfər çox uğurlu keçir və Prezidentlə, parlamentin sədri, Baş nazirlə keçirilmiş görüşlər bir daha sübut edir ki, ölkələrimiz arasında münasibətlər yüksəlişdədir. Bizim aramızda çox fəal siyasi dialoq var, beynəlxalq məsələlərdə məqsədlərimiz uyğun gəlir. Regional vəziyyətin, ikitərəfli münasibətlərimizin, dünyada baş verən hadisələrin qiymətləndirilməsində ölkələrimizin siyasəti üst-üstə düşür. Əlbəttə ki, siyasi fəallıq və qarşılıqlı anlaşma belə yüksək səviyyədə olduqda, hərtərəfli iqtisadi münasibətlərin inkişafı üçün çox yaxşı zəmin yaranır.

Bolqarıstan Prezidenti cənab Pırvanov keçən il Azərbaycana səfər etdi. Bu il mən